# Küveyt mətbuatı Azərbaycanın inkişaf etmiş nəqliyyat infrastrukturundan yazıb

**Küveytin ərəb və ingilis dilli mətbuat orqanları "Times Kuwait" və "Al-Wasat" qəzetlərində "Yeni İpək yolu: Niyə inkişaf etmiş nəqliyyat infrastrukturu Azərbaycanın gələcəyinin açarıdır?" sərlövhəli məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Mərkəzi Asiyanı Avropa ilə birləşdirən tarixi İpək yolu üzərində yerləşməsi və bu marşrutun XXI əsrin inkişaf etmiş texnologiya imkanlarına uyğun olaraq yenidən bərpa edilməsi barədə məlumat verilib.

Qeyd edilib ki, Bakı şəhəri 2000-ci ildən Avropa İttifaqı ilə Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyanın 12 dövləti arasında iqtisadi, ticarət və nəqliyyat əlaqələrinin inkişafına xidmət edən TRACECA (Transport Corridor Europe-Caucasus-Asia) proqramına evsahibliyi edib. Dövlət Statistika Komitəsinin məlumatına istinadən Azərbaycan ərazisindən 2020-ci il ərzində 188,6 milyon ton mal və məhsulun daşındığı bildirilən məqalədə diqqətə çatdırılıb ki, yük daşınmalarının 84,1 faizi neft və qaz boru kəmərlərinin payına düşür, digərləri isə avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatı vasitəsilə həyata keçirilib.




Müəllif vurğulayıb ki, Azərbaycan son illər Gürcüstan, Rusiya və İran ilə bu ölkəni birləşdirən infrastruktur layihələrinin icrasına böyük həcmdə sərmayələr yatırıb, eyni zamanda, 1902-ci ildən dəniz nəqliyyatı üçün istifadə olunan Bakı limanı əsaslı bərpa edilib, böyük iqtisadi potensiala malik Ələt Dəniz Ticarəti Limanı salınıb. Bundan əlavə, 1878-ci ildə əsası qoyulmuş və uzunluğu 2900 kilometr olan Azərbaycan dəmir yolları sisteminin Cənubi Qafqazın ən böyük və irihəcmli sistemə çevrildiyi qeyd edilib. 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yollarını birləşdirməklə, Çindən Avropaya qədər malların daşınmasına imkan verir.

Məqalədə həmçinin beynəlxalq hava yollarının Azərbaycandan keçməsini təmin etmək məqsədilə Heydər Əliyev Beynəlxalq Aeroportu ilə yanaşı, daha 5 böyük beynəlxalq əhəmiyyətli hava limanının fəaliyyət göstərdiyi bildirilib.

Yazıda diqqətə çatdırılıb ki, Azərbaycan həyat dolu və imkanlar ölkəsidir. Tarixi irs və multikultural dəyərlər yüz illər boyu qorunub saxlanılıb və zənginləşdirilib. Azərbaycanın insan potensialı, ətraf mühitə və ölkənin düşünülmüş konsepsiyasına əsaslanan güclü iqtisadi inkişafı gələcəyin təminatçısıdır.

Sonda Azərbaycan-Küveyt əlaqələrindən bəhs edilib. Vurğulanıb ki, Küveytlə hava əlaqələrinin tezliklə bərpasına və Körfəz bölgəsinə coğrafi yaxınlığın iqtisadi əlaqələrin hərtərəfli genişləndirilməsinə imkan verəcəyinə böyük ümid bəslənilir. Hər iki ölkənin neft məmləkəti olması və qeyri-neft sektorunun inkişafı məqsədilə iqtisadiyyatlarını şaxələndirmək planları təcrübə mübadiləsini zəruri edən amillərdir. Azərbaycan Körfəz ölkələri ilə Qafqaz regionu arasında körpü rolunu oynaya bilər. Bu məqsədlə Azərbaycanda müasir infrastrukturu və əlverişli iş mühiti formalaşdırılıb. Xüsusən Küveyt kimi dost və qardaş ölkələr üçün əlverişli sərmayə mühiti yaradılıb.

Azərbaycan.- 2021.- 21 sentyabr.- S. 4.